**“İctimai televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının qanunundan (Çıxarışlar)**

“İctimai televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanunu. № 767-IIQ, 28 sentyabr 2004-cü il (02.11.2018-ci ilin dəyişiklikləri ilə).

**Maddə 7.** İctimai yayımçının vəzifələri

**Maddə 7.0.** İctimai yayımçının vəzifələri aşağıdakılardır:

**Maddə 7.0.10.** Tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirilməməsi, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirildiyi əsərlərin, tamaşaların, proqramların efirdə, kabel yayımı vasitəsilə açıq yayımlanmaması.

**Maddə 7.1.** “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ictimai yayımçı tütündən istifadənin və sağlamlığa zərər vuran digər vərdişlərin mənfi təsiri barədə müvafiq icra hakimiyyəti orqanlarının, elm müəssisələrinin və qeyri-hökumət təşkilatlarının dəstəyi ilə xəbərdaredici, maarifləndirici və tərbiyəvi mövzuda verilişlər hazırlayır və bu mövzulara ayda 90 dəqiqədən az olmayan efir vaxtı ayırır. Bu verilişlərin 45 dəqiqəsi saat 17.30 - 23.00 arasında olmaqla saat 08.00 - 23.00 arasında yayımlanır və verilişlərin surəti hər ay Milli Televiziya və Radio Şurasına təhvil verilir.